Könül Surxay qızı Məmmədova54

PROF. SƏDNİK PAŞAYEVİN TƏDQİQATLARINDA SARI AŞIQ

Giriş. Sarı Aşıq XVII əsr xalq ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. Azərbaycan şifahi xalq ədəbiyyatına və folklorşünaslıq tarixinə dair tədqiqatlarda bu və ya digər şəkildə Sarı Aşıq yaradıcılığına müraciət olunur, onun ədəbi irsi, bayatı yaradıcılığı, "Yaxşı-Yaman" dastanı barəsində mülahizələr irəli sürülür. "Sarı Aşıqla bağlı bilgi toplayan və ilkin araşdırmalar aparan Ə.Qaracadaği, S.Mümtaz, B.Behcət, Ə.Axundov"dan (1, 556) sonra da onun irsi S.Paşayev, H.Kürdoğlu, H.Araslı və b. tərəfindən ardıcıl olaraq tədqiq edilmişdir.

Sarı Aşıq irsinə həsr edilmiş tədqiqatlar. Sarı Aşıq irsinin tədqiqinə həsr edilmiş əsərləri təhlil etdikdə müəyyən etmək olur ki, həmin tədqiqatlar əsasən iki istiqamətdə aparılmışdır:

Birincisi, söz ustadının həyat və yaradıcılığının tədqiqi;

İkincisi, Sarı Aşıq irsinin toplanması.

Amma etiraf etmək lazımdır ki, Sarı Aşıq yaradıcılığının tədqiq tarixində üçüncü bir istiqamət daha çox özünü göstərir. Bu da eyni tədqiqatçı və ya müəllif tərəfindən həmin poetik irsin paralel olaraq həm toplanması, həm də tədqiq edilməsidir. Məsələn, "Azərbaycan ədəbiyyatının qaynaqları"nı fundamental şəkildə tədqiq edən repressiya qurbanı Salman Mümtaz Sarı Aşığa "Aşıq Abdulla" (2) kimi ayrıca tədqiqat həsr edirsə, eyni zamanda "Sarı Aşıq və bayatıları" kitabını (3) da çap etdirir. Yaxud daha bir repressiya qurbanı ziyalımız Bəhlul Bəhcət 1936-cı ildə Ədəbiyyat qəzetində iki məqalə çap etdirir ki, "Sarı Aşıq" (4) və "Aşıq təxəllüslü bayatı şairinin tərcümeyi-halı" (5) adlı bu yazıları Sarı Aşığın həyat və yaradıcılığının tədqiqinə həsr edir. Digər tərəfdən isə Sarı Aşığa məxsus 349 bayatı nümunəsi toplayır. Onun bu toplamaları və "Bayatı şairi Sarı Aşığın tərcümeyi-halı" yazısı əlyazma şəklində Respublika Dövlət Ədəbiyyat və İncəsənət arxivində "Azərbaycan bayatıları haqqında elmi əsər" qovluğunda saxlanılır. Sevindirici haldır ki, Bəhlul Bəhcətin bu zəhməti itib batmamış və 2006-cı ildə dosent Rza Xəlilov tərəfindən "Sarı Aşığın bayatıları" adı ilə Azərbaycan folklorunun ilkin nəşrləri seriyasından ayrıca kitab şəklində nəşr edilmişdir (6). Bu nəşrlə tanışlıq zamanı məlum olur ki, Bəhlul Bəhcət Sarı Aşığın tərcümeyi-halı barəsində tədqiqat və bayatı toplamalarından əlavə, həm də bayatıların təhlili ilə də ciddi şəkildə məşğul olmuş, Sarı Aşığın bayatılarını məzmun baxımından təsnif etmiş və onlara geniş şərhlər və təhlillər yazmışdır.

Professor Sədnik Paşayevin Sarı Aşıq yaradıcılığının tədqiqi tarixində yeri. Üçüncü istiqamət - yəni həm tədqiqat, həm də toplama fəaliyyəti ilə məşğul olan tədqiqatçılar sırasında mütləq şəkildə bir alimin də adı çəkilməlidir. Professor Sədnik Paşayev ötən əsrin yetmişinci illərindən Sarı Aşıq irsi ilə maraqlanmış, ona məqalələr həsr etmiş, elmi fəaliyyətinin son illərində bu istiqamətdəki tədqiqatlarını kitab halında ümumiləşdirmiş, eyni zamanda zəngin toplama materialları da ortaya qoya bilmişdir.

Professor Sədnik Paşayevin Sarı Aşıq irsinə müraciəti, qeyd etdiyimiz kimi, XX əsrin 70-ci illərindən başlayır. Xronoloji ardıcıllıqla yanaşsaq, professorun bu mövzuda ilk məqaləsi 1970-ci ildə Gəncə şəhərində "Yüksəliş" qəzetində dərc edilir . "Sarı Aşığın bayatı bağlamaları haqqında" adlanan bu məqalə qəzetin iki nömrəsində - 17 dekabr və 26 dekabr nömrələrində çap olunur (7).

Ümumiyyətlə, XX əsrin 70-ci illəri Sarı Aşıq irsinin tədqiqi baxımından professor üçün məhsuldar il hesab oluna bilər. Belə kı, 1972-ci ildə Gəncə şəhərində yenə də "Yüksəliş" qəzetində alimin ""Lələ əfsanəsi" və Sarı Aşıq" (8), 1975-ci ildə "Azərbaycan dili və ədəbiyyatı tədrisi" metodik məqalələr məcmuəsində isə ""Sarı Aşıq və "Yaxşı-Yaman" dastanı" məqaləleri (9) dərc olunur.

Burada bir haşiyə çıxaraq onu söyləmək lazımdır ki, Sədnik Paşayev 2000-ci illərdən sonra folklora və folklorşünaslığa dair o zamanacan yazdığı bütün məqalələrini bir yerə toplayaraq yenidən müxtəlif kitablar vasitəsilə oxucularına çatdırmış və müəllifin özünün də qeyd etdiyi kimi, "kitabı gənc tədqiqatçıların istinad edəcəyi salnamə və yaxud mətnşünaslıq materialları" halına gətirmişdir. Eynilə də, Sarı Aşığa həsr edilmiş və Gəncə şəhərində 70-ci illərdə və daha sonralar çap olunan qəzet və məcmuə məqalələrinə ikinci həyat qazandırmışdır. Yenidən dərc olunan bu kitab və məcmuələr bizim məqalənin biblioqrafiya bölümündə öz əksini tapmışdır.

Yenə də xronoloji ardıcıllığa riayət edərək professorun sonrakı tədqiqatlarına nəzər salaq.

1983-cü ildə "Xalq poeziyasında Sarı Aşıq ənənələri" məqaləsi (10) "Kirovabad kommunisti" qəzetində işıq üzü görür. Elə həmin il Sədnik Paşayevin başqa bir məqaləsi - "Ümmandan incilər: Sarı Aşığın bayatı bağlamaları" (11) "Sovet kəndi" qəzetində çap edilir. 1983-cü ildə həm də "Sarı Aşığın cinaslı bayatıları" məqaləsi "Azərbaycan müəllimi" qəzetində yayımlanır (12). 1984-cü ildə isə "Sarı Aşıq" məqaləsi (13) "Elm və həyat" jurnalında nəşr edilir.

Bütün yuxarıda adıçəkilən tədqiqatlar birbaşa olaraq Sarı Aşığa həsr edilmişdir. Amma professor Sədnik Paşayevin elə kitab və dərslikləri də vardır ki, orada tədqiqat obyekti Sarı Aşıq irsi olmasa da, müəllif bu bayatı ustasının yaradıcılığına bu və ya digər səbəbdən müraciət edir və Sarı Aşıq yaradıcılığına istinadlar edir. Məsələn, 2003-cü ildə işıq üzü görmüş "Heca vəzninin bayatı və qoşma möcüzələri" adlı dərs vəsaitində cinas qafiyələrə toxunan müəllif mütləq şəkildə Sarı Aşıq irsinə müraciət edir, Xəstə Qasım, Tufarqanlı Abbas yaradıcılığı ilə uğurlu paralellər aparır (14, 148). Bu dərsliyin bir yarımfəsli də - "Sarı Aşığın cinas bayatılarının bir küll halında meydana gəlməsi" - Sarı Aşığın cinas bayatılarına həsr edilmişdir.

Maraqlıdır ki, 2010-cu ildə Gəncə Dövlət Universitetində çıxmış "Azərbaycan aşıq poeziyasında və yazılı poeziyada təcnisin inkişaf tarixi" adlı dərslikdə də eyni yarımfəslə - "Sarı Aşığın cinas bayatılarının bir küll halında meydana gəlməsi" - rast gəlmək mümkündür (15, 39).

2000-ci illərdə professor haqqında danışdığımız tədqiqatları təkmilləşdirərək "Xalq cəbhəsi" qəzetində də nəşr etdirir. " Sarı Aşığın poeziyası" məqaləsi (16) qəzetin 6 dekabr 2012, "Bayatı yaradıcısı Lələ və Sarı Aşıq" məqaləsi (17) isə 30 avqust 2017-ci il tarixli nömrələrində dərc olunur. Bir cəhəti də qeyd edək ki, hər iki məqalə "Xalq cəbhəsi" qəzetinin internet səhifələrində də yer alır. Əgər birinci məqalə müəllifin sağlığında ikən özü tərəfindən təqdim edilibsə, ikinci məqalə, gördüyümüz kimi, Sədnik Paşayevin ölümündən dörd il sonra dərc edilmişdir. Bu da istər Sədnik Paşayevin elmi irsinə, istərsə də Sarı Aşıq yaradıcılığına olan oxucu marağının bariz təzahürüdür. Eynilə də, başqa bir anadilli xəbər portalı – kayzen.az

54 Azərbaycan Universitetinin dissertantı . dilchilik2001@gmail.com

saytı Sədnik Paşayevin “Sarı Aşığın poeziyası” yazısını verir. Buradan məlum olur ki, həmin yazı çoxsaylı oxucu istəyi nəzərə alınmaqla sayta yerləşdirilmişdir.
“Poeziyamızda Sarı Aşığın bayatı zirvəsi” kitabı. Nəhayət, 2011-ci ildə professor Sədnik Paşayev o zamana qədər Sarı Aşıq haqqında pərakəndə şəkildə apardığı tədqiqatları sistemləşdirərək kitab halına salır və “Poeziyamızda Sarı Aşığın bayatı zirvəsi” adı altında nəşr etdirir (19). Bu kitaba nəzər saldıqda vaxtilə ayrıca hər məqalədə qoyulan problemlərin fəsillərdə öz əksini tapdığının şahidi oluruq. Məsələn, “Sarı Aşığın həyat və yaradıcılıq yolu” fəsli Sarı Aşığın doğumu, təxəllüsü və s. ətrafında gedən polemikalara həsr edilmişdir; “Sarı Aşığın dastan yaradıcılığı” hissəsi isə “Aşıq və Yaxşı” dastanından bəhs edir.
Kitabın ikinci fəslində isə Sarı Aşığın bayatılarına – cinaslı bayatılara və bağlama bayatılarına toxunulmuşdur.
Son olaraq onu qeyd edək ki, professor Sədnik Paşayevin qızı Sahibə Sədnikqızı da bir müddət Sarı Aşıq sehri altında olmuş, Sarı Aşığın poetik irsini çalışdığı AMEA Folklor İnstitutunda plan işi səviyyəsində araşdırmış və ərsəyə 50 səhifəlik, 4 fəsildən ibarət “Sarı Aşığın yaradıcılıq yolu” adlı tədqiqat işi gətirmişdir. Əfsuslar olsun ki, İnstitutun Elmi Arxivində həmin tədqiqat işi itib-batmışdır. Amma Sahibə Sədnikqızının bu tədqiqatının nəticəsi kimi “Sarı Aşıqla bağlı rəvayətlər” adlı bir elmi məqaləsi “Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər” məcmuəsində çap edilmişdir (20).
Nəticə. Beləliklə, Sədnik Paşayevin Sarı Aşığın yaradıcılığının tədqiqinə həsr edilmiş bütün bu məqalələr, kitab və toplama işləri ilə tanışlıq zamanı professorun əsas tədqiqat istiqamətlərini bu şəkildə ümumiləşdirə bilərik:
Sarı Aşığın adı, təxəllüsü, vətəni, ümumiyyətlə, tərcümeyi-halı barəsində özündən öncə deyilənlərə münasibət - Sədnik Paşayev, şübhəsiz, Salman Mümtaz, Əmin Abid, Məmmədhüseyn Təhmasib, Bəhlul Bəhcətin Sarı Aşıq, onun vətəni və təxəllüsü barəsində dediklərini təhlil etmiş, hər məsələ ilə bağlı öz fikir və mülahizələrini təqdim etmişdir.
Sarı Aşığın bayatı ustası kimi dəyərləndirilməsi – Professor Sədnik Paşayev Sarı Aşığı bu şəkildə dəyərləndirir: “XVII əsrin nəhəng simalarından olan Sarı Aşığın bayatı yaradıcılığı Azərbaycan ədəbiyyatında xüsusi bir mərhələ təşkil edir. Sarı Aşığın sələflərindən və xələflərindən heç biri bayatı yaradıcılığında onun fəth etdiyi zirvəyə yüksələ bilməmişlər. Sarı Aşıq bayatı yaradıcılığının şahıdır, padişahıdır, tacidarıdır” (19, 73).
Sarı Aşığın bağlamalarının tədqiqi;
Sarı Aşığın cinaslı bayatılarının təhlili;
“Aşıq və Yaxşı” dastanının üzə çıxarılması və nəşri;
Lələ - Sarı Aşıq paralellərinin aparılması - istər məqalələrindən, istərsə də kitabdan məlum olur ki, Sədnik Paşayevi Sarı Aşığa gətirən yol Lələ ilə tanışlıqdan başlamışdır.
Bayatılı dastanlara münasibət;
Sarı Aşığın özündən sonra gələn söz ustadlarına təsiri – “Neçə-neçə sənətkar Sarı Aşıqdan sonra sənət meydanına gəlmiş – Xəstə Qasım, M.V.Vidadi, M.P.Vaqif, Kazım ağa Salik, Q.zakir, Aşıq Həmayıl, Aşıq Pəri, Məhəmməd bəy Aşiq, Aşıq Bəsti və başqaları onun bayatı yaradıcılığına xüsusi maraq göstərmişlər” (19, 69) və s.

ƏDƏBİYYAT

Qasımlı M. Sarı Aşıq // Azərbaycan ədəbiyyatı tarixi, altı cilddə, I cild. Bakı: Elm, 2004, s.556-563
Mümtaz S. Aşıq Abdulla //
Mümtaz S. Sarı Aşıq və bayatıları. Bakı: Azərnəşr, 1935, 213 s.
Bəhcət B. Sarı Aşıq // Ədəbiyyat qəzeti, 29 fevral 1936
Bəhcət B. Aşıq təxəllüslü bayatı şairinin tərcümeyi-halı // Ədəbiyyat qəzeti, 24 mart 1936
Bəhcət B. Sarı Aşığın bayatıları // transliterasiya və ön sözün müəllifi R.Xəlilov. Bakı: Səda, 2006, 97 s.
Paşayev S. Sarı Aşığın bayatı-bağlamaları haqqında // “Yüksəliş” qəzeti, Gəncə, 17 dekabr 1970, 26 dekabr 1970. Yenidən nəşr üçün bax: Pirsultanlı S.P. Sarı Aşığın bayatı-bağlamaları haqqında // Azərbaycan folkloruna dair tədqiqlər. Gəncə: Pirsultan, 2006, s.243-248
Paşayev S. “Lələ əfsanəsi” və Sarı Aşıq // “Yüksəliş” qəzeti, Gəncə, 18 may 1972. Yenidən nəşr üçün bax: Pirsultanlı S.P. “Lələ əfsanəsi” və Sarı Aşıq // Azərbaycan folkloruna dair tədqiqlər. Gəncə: Pirsultan, 2006, s.233-237
Paşayev S. Sarı Aşıq və “Yaxşı- Yaman” dastanı // “Azərbaycan dili və ədəbiyyatı tədrisi” metodik məqalələr məcmuəsi. “Azərbaycan məktəbi” jurnalına əlavə. Bakı: № 4 (88), 1975. Yenidən nəşr üçün bax: Pirsultanlı S.P. Sarı Aşıq və “Yaxşı-Yaman” dastanı // Ozan-aşıq yaradıcılığına dair araşdırmalar, 2 cilddə, I hissə. Gəncə: Pirsultan, 2002, s.102-113
Paşayev S. Xalq poeziyasında Sarı Aşıq ənənələri // “Kirovabad kommunisti” qəzeti, 29 sentyabr 1983. Yenidən nəşr üçün bax: Pirsultanlı S.P. Xalq poeziyasında Sarı Aşıq ənənələri // Azərbaycan folkloruna dair tədqiqlər. Gəncə: Pirsultan, 2006, s. 257-263
Paşayev S. Ümmandan incilər: Sarı Aşığın bayatı bağlamaları // Sovet kəndi, 1983, 17 dekabr
Paşayev S. Sarı Aşığın cinaslı bayatıları // “Azərbaycan müəllimi” qəzeti, 10 avqust 1983. Yenidən nəşr üçün bax: Pirsultanlı S.P. Sarı Aşığın cinaslı bayatıları // Azərbaycan folkloruna dair tədqiqlər. Gəncə: Pirsultan, 2006, s. 249-257
Paşayev S. Sarı Aşıq // “Elm və həyat” jurnalı, № 4, 1984
Pirsultanlı S.P. Heca vəzninin bayatı və qoşma möcüzələri. Dərs vəsaiti. Bakı: 2003
Pirsultanlı S.P. Sarı Aşığın cinas bayatılarının bir küll halında meydana gəlməsi // Azərbaycan aşıq poeziyasında və yazılı poeziyada təcnisin inkişaf tarixi. Gəncə: Gəncə Dövlət Universiteti, 2010, s.39-43
Pirsultanlı S.P. Sarı Aşığın poeziyası // Xalq cəbhəsi qəzeti, 6 dekabr 2012
Pirsultanlı S.P. Bayatı yaradıcısı Lələ və Sarı Aşıq // Xalq cəbhəsi qəzeti, 30 avqust 2017
Paşayev S. Sarı Aşıq poeziyası // https://kayzen.az
Pirsultanlı S.P. Poeziyamızda Sarı Aşığın bayatı zirvəsi. Bakı: Azərnəşr, 2011, 156 s.
Paşayeva S. Sarı Aşıqla bağlı rəvayətlər // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XVIII cild. Bakı: Səda, 2005, s.112-117

Açar sözlər: Sarı Aşıq, tədqiqat tarixi, Sədnik Paşayev, təcnis, bayatı, dastan
Ключевые слова: Сары Ашуг, история исследования, Седник Пашаев, теджнис, баяты, дастан
Key words: Sari Ashug, history of research, Sednik Pashayev, tajnis, bayati, epos

Сары Ашуг в исследованиях проф.Садника Пашаева
Резюме
В данной статье исследуются статьи, книги и фольклорные материалы профессора-фольклориста Садника Пашаева, посвященные видному представителю Азербайджанской народной литературы XVII века Сары Ашугу. Сары Ашуг известен как создатель уникальных образцов баяты и дастана «Яхши-Яман», построенный на чередовании прозы и образцов баяты.
Свои исследования в этой области Садник пашаев в основном провел в таких направлениях, как – Сары Ашуг мастер баяты; Сары Ашуг создатель дастана «Яхшы-Яман»; Сары Ашуг мастер баяты-загадок и т.д. Все эти вопросы в статье были исследованы на основе подробного и богатого материала из научного наследия профессора Садника Пашаева.

Sari Ashug in researches of the prof. Sadnik Pashayev
Summary
In this article articles, books and the folklore materials of professor-specialist in folklore Sadnik Pashayev devoted to the prominent representative of the Azerbaijani national literature of the 17th century of Sar; Ashug are investigated. Sar; Ashug it is known as the creator of unique samples of a bayati and dastan "Yakhshi-Yaman" constructed on alternation of prose and samples of a bayati. Sadnik Pashayev generally conducted the researches in this theme in such directions as – Sari Ashug the master of a bayati; Sari Ashug creator of a dastan "Yakhshi-Yaman"; Sari Ashug master of bayati-riddles, etc. All these questions in article were investigated on the basis of detailed and rich material from scientific heritage of professor Sadnik Pashayev.

Rəyçi fil.ü.f.d., dos. Afaq Xürrəmqızı